**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 101 (1949) 1 iyun 2019-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

**(əvvəli ötən saylarımızda)**

**İlan qartalın bu sözlərinə güldü. Pərt oldu qartal, acıqla dedi:**

**-Bu saat dediklərimi sənə sübut edərəm.**

İlan laqeydliklə bildirdi: -Necə sübut edəcəksən? Sənin dediklərinin doğruluğunu yoxlamaq üçün mən də səninlə səmaya uçmalıyam. Mən isə uçmağı bacarmıram.

Bir qədər fikirləşdikdən sonra qartal dilləndi:-Mən səni də göyün ənginliklərinə qaldıracağam.Sən şahid olmalısan ki, mənim kimi iti görən canlı yoxdur.

Onlar razılaşdılar.İlanı qanadlarının arasına almış qartal göyə qalxdı, buludların arasında görünməz oldu. İlanın nəfəsi təngidi, canına üşütmə düşdü. Qartal dayandı və yeri seyr edərək ilana dedi:

-Çayın kənarında bir öküz ölmüşdür. Sən onu görürsənmi?

yas yerinə gələr, el adəti ilə ölünü urvata mindirərmiş. O, böyük hörmət-izzət sahibiymiş. Ancaq onun yeganə nöqsanı oymuş ki, hara gedir getsin, nəvəsi Qulamı da özü ilə apararmış. Qulam da nə Qulam, hər oturanda 15-20 adamın xöyərini yeyər, doydum deməzmiş.

Bir gün qonşu obaların birində ölü düşür. Ölü yiyəsi kasıb bir kişi imiş. Var-yox bircə qoyunu varmış. O, belə qərara gəlir ki, qoyunu kəsib anasına ehsan versin.

Molla məsələsinə gələndə qanı bərk qaralır. Çünki həmin mahalda Fərzalıdan başqa kamil molla yoxumuş. Kişi fikirləşir ki, əgər Fərzalını çağırsa Qulam da gələcək. Qoyunu təkcə Qulam yeyəcək. Bəs neyləsin? Mollasız da ki, keçinmək mümkün deyil.

Bir qədər fikirləşdikdən sonra o, molla Fərzalıya belə bir sifarişi göndərir.



# Söz sözü çəkər, arşın da bezi

## Yaxud niyə belə deyirik?

Özünü güc-bəla ilə saxlayan ilan dedi:

-Heç nə görmürəm.

Qartal sözünə davam etdi:

-Həmin öküzün cəmdəyinə miz (lap nazik ağ qurd) düşmüşdür.

-Əgər elədirsə gedək yoxlayaq-dedi ilan.

Qartal yerə endi. Doğrudan da çayın kənarında bir öküz ölmüşdür. Öküzün leşinə diqqətlə baxan ilan heyrətləndi. Həqiqətən də qartalın dediyi kimi idi. Ancaq öküzün cəmdəyinə düşən qurdlar o qədər nazik və kiçik idilər ki, çox çətinliklə duymaq və görmək olurdu. Qartal şəst ilə bir qədər də yaxınlaşmaq istədi. Bu zaman nəsə şaqqıldadı. İlan diksinib geriyə baxdı və qartalı çabalayan gördü. Bir neçə dəfə qeyri-ixtitari qanad çalan qartalın qol-qanadı süstləşdi.

Qartal tora düşmüşdü.Daha o tərpənmirdi.Maddım-maddım səmaya baxırdı.Ölümünü gözləyirdi zirvələrin fatehi. Onun hərəkətlərinə göz qoyan ilanın yazığı gəldi ona, dedi:

-İndi mən neyləyim, sənə necə kömək edim? Bəlkə həmcinslərimi də toplayıb səni bu tordan xilas edək?!

Qartal ah çəkdi, ağır-ağır başını buladı:

-Yox, dostum, narahat olma, dünyanın ən cürətli canlıları belə toplaşsa da məni bu tordan xilas edə bilməz. Çünki mənim düşdüyüm bu tor adi tor deyil, tale torudu.

### *Gəl, amma Qulamsız gəl*

Mahalda Fərzalı adlı bir molla varmış. Hüzr yeri olanda bircə sifarişlə

-Molla, ölmüşəm məni yerdən götür. Başını orda islat, burda qırx. Təcili gəl, amma Qulamsız gəl!

### *Padşahın süd qardaşı*

Padşah qızılca xəstəliyinə tutulur. Həkim ona eşşək südünü dərman buyurur. Kəndlinin yenicə doğmuş eşşəyini bir neçə günlüyə alıb padşahın sarayına gətirirlər. Eşşəyi ana-bala bağçaya buraxırlar. Gündə üç dəfə sağıb südünü padşaha içirdirlər. Padşahın güllü bağçasında keçən müddət ərzində qoduq yüz hoqqadan çıxır, gah güllüyün içinə ağanayır, gah anqırıb səs-küy salır, gah da gəlib-gedən saray adamlarına şıllaq atırdı. Heç, kim qorxusundan qoduğa bir söz deyə bilmirdi. Çünki o padşahla süd qardaşı idi.

### *At arabasına eşşəyin qoşulması...*

Bir aşıqla onun züy tutanı ucqar kəndlərin birindən payi-piyada toydan gəlirmişlər. Züytutan yetənə yetib, yetməyənə də daş atan adammış.Yarı yolda dinclərini almaq üçün bir bulağın başında dayanırlar. Bir az su içirlər, bir az da üz-gözlərinə vurub sərinləyirlər. Bu zaman bir arabaçı da özünü bulağa yetirir. Arabaçı at arabasına atla bərabər bir eşşək də qoşubmuş Bu züytutanın diqqətindən yayınmır. Arabaçı heyvanların ikisini də boyunduruqdan çıxarıb çəmənliyə ötürür. Deyir onlar dnclərini alandan sonra yola davam edərəm. Özü də bumbuz bulağa dodaq sıxıb doyunca içir və çəmənliyə uzanır.

Bu ara züytutan üzünü arabaçıya tutur:

-Qardaş, ayıb olmasın, bu at arabasına eşşəyi niyə qoşmusan?

Arabaçı da hazırcavab adammış:

-Qardaş, at arabasına atla eşşəyin yan-yana qoşulması, aşığın yanında balamançı kimi bir şeydi.

### *Hardan biləydim ki, sən necə yeriyirsən?*

Bir nəfər nabələd yolçu yol ilə gedirmiş. Yolda qabağına bir qoca kişi çıxır. Yolçu qocadan soruşur:

-Ay baba, burdan filan yerə neçə saata getmək olar?

Qoca cavab vermir. Yolçu elə zənn edir ki, qoca kardı, heç nə eşitmir. Odur ki, bir söz deməyib yoluna davam edir. Bir az gedəndən sonra qoca yolçunu arxadan çağırır. Yolçu dayanır. Qoca deyir:

-Ə bacoğlu, bura qayıt ey, sənə sözüm var.

Yolçu qayıdır. Qoca deyir:

-Burdan sən dediyin filan yerə 3 saata getmək olar.

Yolçu əsəbləşir:

-Ay rəhmətliyin oğlu, bunu bayaq deyərdin də. Bu qədər gedəndən sonra ta məni niyə geri qaytardın?

-Qoca deyir:

-Mən hardan biləydim ki, sən yorğa yeriyirsən, asta yeriyirsən, yoxsa yortaq gedirsən. Indi sənin yerişini gördüm. Bu yerişlə 3 saata getmək olar.

Bir başa üç yumruq çoxdu axı, a Yağləvənd!...

Mahmudlu obasından Gəray İmaməli oğlu çöldə mal-heyvan otarırmış. Baxır ki, budu ona tərəf üç nəfər əlisilahlə gəlir. Quşqulanır. Deyir bunlar kimdilərsə qaçaq-quldura oxşayırlar, yəqin məni qarət edəcəklər. Gümanı düz çıxır.

Gələnlər Yağləvənd obasından Qara Xanhüseyn oğlu. Əhməd Şükür oğlu, bir də İbrahim Şamil oğlu idi. Üçü də yaxınlaşıb növbə ilə Gərayın başına qapaz vurub qışqırır:

-Çıx, malın dalından ə, mütəfin!

Gəray silahlıların qorxusundan yavaşca aralaşır. Yağləvəndlilər malheyvanı sürüb aparırlar. Malların ardınca baxan Gəray başını sığallayasığallaya deyir:

-Bir başa üç yumruq çoxdu axı, a Yağləvənd!...

### *Arvadı bu qədər qudurtmaq olmaz*

**Bir kişi aclıqdan əziyyət çəkən üç yolçunu öz evinə qonaq gətirir. Qonaqların gəlişi onun hirsli, hikkəli arvadının xoşuna gəlmir. Kişi arvadına deyir ki, yaxşı yemək hazırlasın, qonaqlar bərk acıblar. Özü də tapşırır ki, yeməyi imkan daxilində tez hazırlasın. Arvad ərinin sözlərini qulaqardına vurur. Aradan xeyli vaxt keçir, nə süfrə açılır, nə də çayçörək gətirilir.**

**(ardı gələn sayımızda)**

*Toplayanı və çapa hazırlayanı*
*Faiq Şükürbəyli,*
*filologiya üzrə fəlsəfə doktoru*